# Parkinq xidmətində mobil tətbiqləri görə biləcəyik

## Yavər Məmmədova: "Cəmiyyətin problemini ən yaxşı cəmiyyət bilir" devizi ilə problemin həllinə nail olacağımıza ümid edirik"



**Bakı şəhərində parkinq xidməti ilə bağlı problemlər, narahatlıq doğuran məqamlar, müasir yanaşmalara uyğun gəlməyən nüanslar çoxdur. Artıq problemlərin aradan qaldırılması üçün işlər aparılacaq. Belə ki, Bakı şəhərində parklanmanın təşkili üzrə Baş Plan hazırlanacaq. Bakı Nəqliyyat Agentliyi bu işlərin icrası ilə bağlı "Alpina Parking Consulting" MMC ilə əməkdaşlıq edir. Baş planla bağlı "Alpina Parking Consulting" MMC-nin baş meneceri Yavər Məmmədova suallarımızı cavablandırdı.**

**- İlk olaraq Bakı şəhərində parklanmanın hazırkı vəziyyətilə bağlı fikrinizi öyrənək. Durumu necə qiymətləndirirsiniz?**

- Bakı şəhərində parklanma probleminin olması hər kəsə məlumdur. Bu problemin əsasında, təbii ki, bir neçə faktor durur. Bu faktorlar sırasında parklama qaydalarının pozulması, qadağan olunmuş yerlərdə parklanma, şəhərimizdə olan avtomobil sayının çoxluğu və parklama yerlərinin azlığını göstərə bilərik. Baş Planı hazırlayarkən əsas 4 addımı izləyəcəyik. 1-ci addım araşdırma, 2-ci addım analiz, 3-cü addım problemin həlli və 4-cü addım Baş Plan layihəsinin hazırlanmasıdır. Addımlardan da gördüyünüz kimi, mövcud vəziyyətin qiymətləndirilməsi 2-ci və 3-cü addımda baş tutacaq.

**- Baş planda hansı yeniliklər öz əksini tapacaq?**

- Baş planın hazırlanması üçün öncə biz şəhərdə parklama vəziyyətini araşdırmalı və analiz etməliyik. Sonrakı addımlar məhz bizim araşdırma və analizlərin nəticələrindən asılı olaraq həyata keçiriləcək. Bakı şəhərinə bir çox yeniliklər gətirmək olar, yalnız əsas məsələ bu yeniliklərin əhali tərəfindən qəbul edilməsi, problemin həllinə yönəlməsi, onu həll etməsi və davamlı olmasıdır.

**- Baş planda əksini tapan əsas məsələlərdən birinin müasir ödəniş metodları olduğu qeyd edildi. Hansı metoddan söhbət gedir?**

- Bu gün dünyada inkişaf etmiş ölkələr nağdsız ödəniş sisteminə keçid edir və bu sistemi genişləndirir. Dövlətimizdə də bu sahənin inkişafı üçün bir çox tədbirlər həyata keçirilməkdədir. Nağdsız ödəniş sistemindən parklanma ödənişlərinin həyata keçirilməsində də istifadə olunması məqsədəmüvafiqdir. Bakı şəhərində bir çox park qarajlarında nağdsız ödənişlərin mövcud olduğunu bilirik. Lakin bu, bəzən həmin avtomatların qarşısında böyük bir sıranın əmələ gəlməsinə səbəb olur. Biz həm park yerinin rezervasiyasının, həm də ödəniş etmənin bir mobil tətbiq vasitəsi ilə həyata keçirilməsinin mümkünlüyünü bildiririk. Bu gün Avropanın bir çox şəhərlərində bu mobil tətbiqlər istifadədədir. Mobil tətbiq vasitəsilə sürücü gedəcəyi ərazidə olan ən yaxın park yerlərindən hansında boş yerin olmasını görür və seçim edərək onu bir neçə saatlıq rezerv edə bilir. Ödənişi də məhz bu mobil tətbiq vasitəsi ilə edir.

**- Baş Plana uyğun olaraq şəhər ərazisinin zonalara bölünəcəyi və hər zonaya fərdi yanaşma tətbiq olunacağı bildirilir. Fərdilik nədən ibarət olacaq?**

- Bakı şəhər ərazisinin hər bir zonasının fərdi xüsusiyyətləri var. Bu fərdi xüsusiyyətlərə həmin zonada yaşayan əhali sayı, avtomobil sayı, yerləşən təhsil kompleksləri, iaşə obyektləri, iş yerləri, istirahət mərkəzləri və s. aiddir. Bir zonada problemin həlli olan yanaşma, digər zona üçün həll yolu olmaya bilər. Biz fərdi xüsusiyyətləri araşdırıb analiz edərək həmin zona üçün fərdi həll yolu tətbiq edəcəyik.

**- Fərdilik yəqin ki, qiymətdə də olacaq. Müxfəlif yerlərdə qiymət hansı prinsiplər əsasında müəyyənləşdiriləcək?**

- Təbii ki, fərdi yanaşma qiymətlərdən də yan keçməyəcək. Lakin bütün bunlar həmin zonanın fərdi xüsusiyyətlərindən, araşdırma və analizin nəticəsindən, problemin həllinə yönələn yanaşmadan asılı olacaq.

**- Müəyyənləşdirilən parklanma qiymətləri hazırda mövcud olan yeraltı dayanacaqlara da şamil olunacaqmı?**

- Bildiyiniz kimi hazırda park qarajları dövlət və özəl park qarajlarına bölünür. Hazırda yeraltı dayanacaqlarda vahid tarif siyasəti yoxdur. Bu da öz növbəsində özəl yeraltı dayanacaqların qiymət siyasətinin müstəqil aparılmasına gətirib çıxarır. Layihə həyata keçirilərkən qiymətlərlə bağlı müəyyən araşdırma və analizlər aparılacaq və nəticəsi dövlət orqanlarına təqdim olunacaq.

**- Şəhərin mərkəzində yaşayan müəyyən adamlar var ki, hər gün parkinq yerlərindən istifadə etməli olurlar. Onlar üçün hər hansı güzəşt olacaqmı?**

- Qeyd etdiyimiz kimi park qarajları dövlət və özəl park qarajlarına bölünür. Bizim həyata keçirdiyimiz layihə dövlət parklanma sahəsinə aiddir. Və həmçinin qeyd etmək istərdik ki, tarifləri biz deyil, dövlət orqanları müəyyən edir. Biz yalnız araşdırma və analizlərimizin nəticəsi olaraq dövlət orqanlarına müəyyən təkliflər verə bilərik.

**- Parklanma işini əli çubuqlu nümayəndələr tənzimləyirlər. Yenə bunları görəcəyik?**

- Bu gün Bakı şəhərində kifayət qədər əli çubuqlu nümayəndələr var və bu insanların qeyri-qanuni çalışdıqlarını BNA dəfələrlə ictimaiyyətə bildirib. Bu insanların bu yolla qazanc əldə etdiyini nəzərə alaraq, araşdırma və analizlərimizin nəticəsində tətbiq edəcəyimiz sistemdən asılı olaraq, bu nümayəndələrin qanuni olaraq parklanma işində fəaliyyət göstərmələrinin mümkünlüyünə qərar veriləcək.

**- Parklanma yerlərində maşına dəyəcək zərərə görə məsuliyyəti kim daşıyır? Buna görə sığorta olacaqmı?**

- Bu, avtomobilin sığorta növündən asılıdır. Avtomobil tam sığortalanıbsa, parklanma zamanı maşına dəyə biləcək zərərlər də nəzərdə tutulubsa, sığorta şirkəti zərəri qarşılayacaq.

**- İndi parklanmalarla bağlı şikayətlər həddindən artıq çoxdur. Sizcə, Baş Plan üzrə işlər görüləndən sonra bu şikayətlər aradan qalxacaqmı?**

- Biz parklanma problemlərinin həlli üçün əhali ilə sıx əlaqədə çalışacağıq. "Cəmiyyətin problemini ən yaxşı cəmiyyət bilir" devizi ilə problemin həllinə birgə nail olacağımıza ümid edirik. Və bu məqsədlə cəmiyyətimizi bu məsələdə bizə yardım etməyə, gələcək fəaliyyətimizdə aktiv iştirak etməyə çağırırıq.

**- Ümumiyyətlə, Baş Planın hazırlanması, icrası nə qədər zaman alacaq?**

- Hər şey parklama probleminin miqyasından və yuxarıda qeyd etdiyimiz addımlar zamanı ortaya çıxacaq yeni problemlərdən asılıdır. İlkin olaraq Baş Planın hazırlanmasını 1 il ərzində nəzərdə tutmuşuq. Amma qeyd etdiyimiz kimi, bu, gedişatda dəyişə bilər.

**Aygün**